

Qaşında zəxm görüb ey büti-hilal-əbru,
Dedim ki, qəlpələnən Zülfüqarə bənzər bu.

***

Ümmi-sibyan oxuyub bintül-inəb nuş etsən,
Etməz əbnayi-zaman tək səni layəqil məst.

***

Demə fəraq odunun duzəxə şəbahəti var,
Behiştə duzəxin, ey bixirəd, nə nisbəti var?!

***

Vəsfi-ruyində bu rövşən qəzəl, ey mah, bu gün
Yeri vardır yazıla səfheyi-əflak üzrə.

***

Hər günüm hicrində, şahim, bir qiyamət etmisən,
Bir bilirsənmi nələr ey sərvqamət etmisən?!

***

Mən səni əğyarə mail sevməzəm mən edəli,
Düşmənimdir ol ki, könlü hüsnüvə mail degil.

***

Seyyid, ötəndə guşeyi-çeşmilə baxdı yar,
Ol etdigi qəzəbləri həm eyni-naz imiş.

***

Olmazam vəsl ilə asudə ki, həngami-vüsal
Rəşk qıllam ona kim, həsrəti-didar çəkər.

***

Xublər könlümü istəllə ki, səndən alalar,
Ey pəri, qoyma ki, özgə məni təsxir etsin.

***

Dəxi, mehri-vəfa axtarma əhli-hüsndən, Seyyid,
Bu rəsmi-köhnə mənsux oldu ol şuxin cəfasından.

***

Vədeyi-didarı fərdayi-qiyamət söylədin,
Səxt dilşadəm ki, hərgiz ol günün fərdası yox.

***

Əlaci-dərdimə səy etmə, ey təbib, dəxi,
Bu dərd o dərd degil kim, dəvapəzir olsun.

***

Bir gecə hicran cəzasıyçün əgər məhşər günü
Almaram ərz etsələr yüz hurü qılmani mənə.

***

Apardım qəbrə mehri-ruyün, amma qorxum ondandır –
Ki, xakimdən çıxıb gül, qeyrlər ondan gülab etsin.

***

Əvvəl mənə bir lütf edib sonra qılır bidadlər,
Ta kim şikayət etməgə lütfi pəşiman eyləsin.

***

Bunca daş atma fələk, Seyyidi-divanəyə kim,
Atsa bir daş eləyər şişəni sədparə sənin.

***

Yar hər namə ki, hər aşiqi-biyarə yazar,
Yazsa bir lütfümü yüz yol genə təkrarə yazar.

***

Göftgu eylərdi əğyar ilə, görcək göz yaşım,
Gəldi kim, ondan sual eylərdim əhvalın sənin.

***

Ta giriftarınam, eşqin məni dilşad etmiş,
Rəhmət ol şəxsə ki, əvvəl bunu bünyad etmiş.

***

Cəmali-Yusifə Yəqub meylindən əyandır kim,
Kişi öz oğluna aşiq olarmış, yar olmazmış.

***

Bu qanlar tökməgindən rəşkim artır kim, qiyamətdə
Açarlar tutmağa, əl hər tərəfdən xəlq damanın.

***

Nə yaxşı vəsldə namehriban idin mənə kim,
Zamani-hicrdə çox etmədi kəbab məni.

***

İstəsən ey mələkül-movt ki, canım alasan.
Get, mənə surəti-yarımda nümayan ol, gəl.

***

Həmdəmi-yar əgər fərištə ola,
Aşiqi-zarı bədgüman eylər.

***

Əgər vüsalüvi həq xəlqə qismət etsəydi,
Ümid kimsənə tutmazdı bağı-rizvanə.

***

Çəmən şahidləri kim, sərbəsər toprağə yatmışdı,
Qiyamətdir bu gün kim, baş çəkib torpaqdən yeksər?!

***

Seyyid o növ vermədi can dərdi-yardən –
Kim, düşməni eşitcək onu şadman ola.

***

Hər yerdə töksə qanım ol şuxi-sərvqamət,
Qan cuş edər o yerdən ta daməni-qiyamət.

***

Qasid məni bəhanə qılıb getdi kuyüvə,
Ol kudə bu bəhanə ilə mənzil eylədi.

***

Bundan bil iştiyaqımı kim, bunca rəşk ilə
Bir qeyri qasid eyləyirəm ərzi-hal üçün.

***

Çıxarmı xatirimdən buseyi-ləli-ləbi-canan,
Nəmək həqqin fəramuş eyləyənlər kamyab olmaz.

***

Qamətü qaşından olmuş əzbərim nun-əlqələm,
Məktəbi-eşq içrə mən tifli-səbəqxanın sənin.

***

Səni hüsn ilə binəzir görüb,
"Vəhdə hu la şərikə-la"* dedilər.

***

O məh yanında bir gün qisseyi-tufanı kəşf etdim
Ki, şayəd vaqif olsun əşki-çeşmim macərasından.

***

…Dilərdi tüstüdən olmaq kənarə,
Bətər ondan bu iş kim, düşdü narə.

***

Abbasını rədd edən sipahi,
Yox eybi, çıxartsın altı şahi

***

Alimin kuşüvə al göftarın,
Sorma xasiyyət ilə ətvarın.

***

Bu səffədə piri tulla gürgə,
Damə atılır kühən süpürgə.

***

Eşidib ölməgüvi şəhrdən öldüm, getdim,
Eylə, ey mah, məni tərki-səfərdən ehya.

* O təkdir, şəriki yoxdur..

***

Yad ol günlər ki, bavər eyləməzdim, ey könül,
Gər şikayət eyləsəydi kimsə hicri-yardən.

***

Eşitdim ta qiyamət qamətindən bir əlamətdir,
Qiyamət həsrətindən hər günüm yüz min qiyamətdir.

***

Ruzi-qətli Seyyidin eylər neçin yar iztirab,
Gər bu məzlumə o şuxi-səngdil qatil degil?

***

Hər zaman derlər ki, qıl bir tazə dilbər arizu,
Padşalıq etmişəm ki, pasibanlıq bilməzəm.

***

Qeyrlər meyl etməgindən yarə bihal olmuşam,
Bəs nolur halım mənim ol meyli-əğyar eyləsə.

***

Əla, ey tiri-dilbər kim, könüldə mihmanımsan,
Əgər can çıxmasaydı cismdən, derdim ki, canımsan.

***

Fariqimdən degiləm şad, vəli əğyarın
Bağrı qan olmaq üçün gül təki xəndan oluram.

***

Ölmə eşəgim, sabah olur yaz,
Yonca bitibən işin olur saz.

***

Bir yaxşı üçün yaman sevərlər,
Gül xatirinə tikan sevərlər.

***

Ləbbəstədir əhli-hal ağzı,
El ağzı, demək, çuval ağzı.

***

Yağmurdən eyləyən fərarı,
Axır doluya düşər güzarı.

***

Yat rahətilə, tut öz sayağın,
Yorqanuva düz uzat ayağın.

***

Rəqibim rəşk edər kim, Seyyidə dilbər cəfa qılmaz,
Haçan mən xatiri-dildarə düşdum kim, cəfa qılsın?

***

Təəccübdür ki, Məcnun qaldı zində Hicri-Leyladə,
Məgər ol vəqt hicranın yox imiş beylə təsiri?

***

Yüz mama olsa, ey güruhi-bəşər,
Bu məsəldir ki, güc doğanə düşər.

***

Bəli, hər bir kəsin var bir səyağı,
Böyük başın böyükdür ağrımağı.

***

Ey əzizim, hesab yox yaşda,
Bu müşəxxəsdi əql olur başda.

***

Sazı səksəndə ögrənən idbar,
Bir də anı qiyamət olsa çalar.

***

Can kuyi-nigarə oldu azim,
Şəhri görənə bələd nə lazim.

İntiqam ilə könül gərçi olur şad, vəli
Dəmi-qüdrətdə füzundur fərəhü zövqü səfa.
Hər cəfa eyliyənə qəsdi-mükafat etsən,
Bəs gərək ömrü giranmayə ola sərfi-cəfa.

***

Dedilər dün o şəkərləb mənə düşnam verib,
Məndə ol bəxtü səadət hanı, böhtandır bu.
Sipəhi-xətt gəlir arizüvə fövcbəfövc,
Rum mülkündə olan leşkəri-sultandır bu.
Seyyida, yox dedi dərman qəmi-hicranə təbib,
Çox qələt eylədi ol, gör necə dərmandır bu?!

***

Könül tapmazdı yol ləli-ləbindən kamə yetməkçün,
Bihəmdilləh ki, gəldi səbz xəttin Xızri-rah oldu.
O zalım bir günah axtardı ki, Seyyid, tökə qanım,
Günahım olmamaq axırda qətlimçün günah oldu.

***

Var neçə şair ki, rəsmi-şeri məndən ögrənib,
Onların ustadiyəm, aləm bilir, bilittifaq.
Mən atalıq etmişəm, onlar mənə övladdır,
Bəzi onlardan olurlar indi gər ustadə ağ,
İddia eylər ki, şairlikdə səndən mahirəm,
Banəmək əşarıma aləm çəkirlər iştiyaq.
Mən də inkar etmirəm, əmma ki, vardır bir məsəl:
"Şux qoduq şıllaq atar, düşmüş anasından qabaq".

***

Rəsmü rəhi-əşarı, təlim tapıb məndən,
İndi özünü Bixud ustad sanır əmda.
Bir ayda tamam olmaz tək bir qəzəli hərgiz,